


## Oğuzlu qadınlar Aqiyə Naxçıvanlıya səs verəcəklər



Yeni Azərbaycan Partiyasının (YAP) 117 saylı Oğuz-Qəbələ seçki dairəsindən deputatlığa namizədi Aqiyə Naxçıvanlı parlament seçkilərinin təbliğat-təşviqat kampaniyası çərçivəsində Oğuz rayonunun qadınları ilə görüşüb.

Tədbiri açan YAP Oğuz rayon təşkilatının sədri Saleh Məhərrəmov Aqiyə Naxçıvanlının həyat yolu, onun V çağırış Milli Məclisin deputatı olduğu dövrdə həm də Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri kimi fəaliyyəti və bu sahədə qəbul edilmiş qanunlar barədə danışıb.

Deputatlığa namizədin vəkili Emin Əzimli bildirib ki, Azərbaycanın inkişafında, tərəqqisində qadınların rolu böyükdür.

Çıxış edənlərdən Hənifə Fətəliyeva, Mehriban Heydərova, Təranə Zəkəriyyəyeva, Xəyalə Yusubova, Nigar Cəfərova, Pərvanə Əhmədova, Xatirə Novruzova seçicilərin problemlərinə həssaslıqla yanaşdığına görə Aqiyə Naxçıvanlıya minnətdarlıq ediblər. Çıxış edənlər Oğuzda Heydər Əliyev Mərkəzinin inzibati binasının yarımçıq qalmış tikintisinin davam etdirilməsinə, gənclər üçün iş yerlərinin açılmasına müəyyən dəstəyin göstərilməsini xahiş ediblər.

Deputatlığa namizəd bildirib ki, zərif, incə olduğu qədər mübariz, güclü, mətanətli olan Azərbaycan qadınına ən yüksək qiyməti ulu öndər Heydər Əliyev verib. Vurğulanıb ki, gender bərabərliyinin təmin olunmasında, qadın hüquqlarının qorunmasında, onların ictimai fəallığının artırılmasında YAP-ın Sədri, Prezident İlham Əliyevin böyük rolu var. A.Naxçıvanlı qeyd edib ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti hər bir Azərbaycan qadını üçün nümunədir.

Sonda oğuzlu qadınlar daha güclü Azərbaycan naminə seçimlərinin məhz Aqiyə Naxçıvanlının olacağını bildiriblər.

* * *



Deputatlığa namizəd Aqiyə Naxçıvanlının, həmçinin Oğuz rayonunun tibb işçiləri ilə görüşü keçirilib.

Çıxış edənlərdən Xaqani Hüseyni, Çinarə Əliyeva, Şəlalə Tahirova, Lalə Həsənova, Gülzar İbrahimova və başqaları deputatlığa namizədə fəaliyyətində uğurlar arzulayaraq qeyd ediblər ki, Oğuzun tibb işçilərinin seçimi Aqiyə Naxçıvanlıdır.

Aqiyə Naxçıvanlı çıxış edərək YAP-ın seçki platforması haqqında məlumat verib. O, dövlət başçısının respublikada apardığı islahatlardan, ölkənin səhiyyə sahəsinə ayırdığı diqqətdən, səhiyyəmizin inkişafından söz açıb. Çətin və şərəfli peşə nümayəndələrinə bu yolda uğurlar arzulayan Aqiyə Naxçıvanlı onları fevralın 9-da keçiriləcək növbədənkənar parlament seçkilərində daha güclü Azərbaycan naminə fəal olmağa çağırıb.

**Zahid Rza,**
***"İki sahil"***

# Düşünək, səs verək, davamlı inkişafa, təkmil islahatlara dəstək olaq!

## Namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 33 saylı Xətai birinci seçki dairəsindən irəli sürülən Hüseynbala Mirələmov rus icmasının üzvləri ilə görüşdü

**Namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 33 saylı Xətai birinci seçki dairəsindən irəli sürülən Hüseynbala Mirələmov dünən rus icmasının üzvləri ilə görüşdü.**

Xətai rayonunda Rus İcmasının sədri Qalina Manafova ölkəmizin tolerantlıq, multikulturalizm təcrübəsini önə çəkərək hər birimizin doğma Vətəni olan Azərbaycanda yaşayan xalqlara olan münasibət, onların öz dinlərini, adət və ənənələrini qoruyub saxlamaları istiqamətində





göstərilən diqqət və qayğıdan, ən əsası bütün xalqların, millətlərin nümayəndələrinin sülh, əmin-amanlıq şəraitində yaşamasından geniş bəhs etdi. Bildirdi ki, deputatlığa namizəd H.Mirələmovun yaradıcılığının əsasında da məhz bu amillər xüsusi yer tutur. Azərbaycan yerləşdiyi coğrafi məkana görə xalqlar, dövlətlər arasında dostluq, əməkdaşlıq körpüsü rolunu oynayır. Bir əsas məqamı qeyd edək ki, H.Mirələmov Moskvanın "Molodaya qvardiya" nəşriyyatında nəşr edilən "Görkəmli adamların həyatı" seriyasından ulu öndər Heydər Əliyev, görkəmli alim Zərifə Əliyeva və dövlətimizin başçısı İlham Əliyev haqqında üç kitabın müəllifidir.

Bildirildi ki, H.Mirələmovun ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan YAP-ın namizədi olması böyük fəxr və qürurvericidir. Ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu, hazırda cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edən YAP-a milyonların sevgisi şəksizdir. Partiya bu gün daha güclü Azərbaycan naminə addımlayır.

Namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən 34 saylı Xətai ikinci seçki dairəsindən irəli sürülən, Azərbaycandakı Rus İcmasının sədri Zabelin Mixail Yuryeviç Hüseynbala Mirələmovun çoxsaxəli fəaliyyətindən, xalqın parlamentdə təmsilçisi kimi gördüyü işlərdən, ölkəmizin hərtərəfli inkişafına xidmət edən qanunların qəbulunda rolundan geniş bəhs etdi. Bildirdi ki, seçicilərlə görüşdən aydın olan bir həqiqət budur ki, Xətai seçiciləri H.Mirələmovun deputatlıq fəaliyyəti dövründə gördüyü işləri yüksək dəyərləndirərək, onu yenidən Milli Məclisdə görmək istəyirlər. Bu istəklərini isə 9 fevral növbədənkənar parlament seçkilərində seçki məntəqələrinə gəlib fəal iştirak etməklə təsdiqləyəcəklər.

M.Zabelin bu fikri xüsusi qeyd etdi ki, H.Mirələmov bir Azərbaycan vətəndaşı, deputat kimi daim dövlətçiliyimizin möhkəmlənməsinə, ölkəmizin inkişafına çalışıb. Azərbaycanın gündən-günə artan uğurları hər bir Azərbaycan vətəndaşı kimi H.Mirələmovda da böyük qürur hissi yaradaraq fəaliyyət göstərdiyi sahələrdə bu inkişafa töhfə verməyə səy göstərib.



Namizədin vəkili, tibb elmləri doktoru, professor Vəsadət Əzizov bildirdi ki, H.Mirələmov haqqında deyilən səmimi fikirlər onun bir vətəndaş, deputat, yüksək ixtisaslı mühəndis, yazıçı, ssenarist, texnika elmləri doktoru, professor kimi bütün keyfiyyətlərini əks etdirir.

V.Əzizov seçicilərə müraciət etdi - Azərbaycanın uğurlu gələcəyi naminə Yeni Azərbaycan Partiyasının namizədlərinə dəstək olaq.

Seçicilər adından Çingiz İsmayılov çıxış edərək 9 fevral növbədənkənar parlament seçkilərində fəal iştirakları ilə bir daha ölkənin aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası ilə həmrəyliklərini təsdiqləyəcəklərini bildirdi.

Deputatlığa namizəd, texnika elmləri doktoru, professor Hüseynbala Mirələmov seçiciləri salamlayaraq, bu mühüm məqama diqqəti yönəltdi ki, deputatlıq fəaliyyəti həyatımın ən maraqlı, ən möhtəşəm dövrü olub: "Bu illərdə minlərlə seçici ilə şəxsən görüşmüş, problemini bölüşmüşəm. İmkan çərçivəsində məndən asılı olan problemləri həll etmiş, diqqət və qayğı göstərməyə çalışmışam. Kiminin xeyir, kiminin şər işində yanında olmuş, sevinclərini, kədərlərini bölüşmüşəm. Şərəf duyuram ki, bu qədər insan məni özünə dogma bilib, etibar etdiyi, ümid bəslədiyi bir şəxs kimi pənah gətirib. Bu, ondan irəli gəlir ki, biz Yeni Azərbaycan Partiyasının namizədləri xalqın, sizlərin içindən çıxmışıq. Sizin istəklərinizin ifadəçisi və müdafiəçisi olmuşuq."

Namizəd özlüyündə yaranan "Ötən dövrdə nə işləri görmüşük" sualına cavab olaraq bildirdi ki, millət vəkilinin gördüyü iş, ilk növbədə, qəbul etdiyimiz qanunların gücündədir. Əgər bu qanunlar Azərbaycan vətəndaşlarının mənafeyinə xidmət edirsə, onların hüquqlarını qoruyursa, ən əsası ölkəmizin hərtərəfli inkişafına geniş imkanlar açırsa, demək, hardasa qarşımıza qoyulan vəzifələrin həllinə nail ola bilmişik. Çünki iqtisadiyyatımız da, təhlükəsizliyimiz də, sosial rifahımız da, mənəviyyatımız da bilavasitə qanunların mükəmməlliyi ilə bağlıdır.

H.Mirələmov seçiciləri müasir, yeni, təkmil parlamentin formalaşmasına hədəflənmiş 9 fevral növbədənkənar parlament seçkilərində fəal olmağa, yaxşı düşünüb, layiqli namizədlərə səs verməyə çağırdı.

Dskussiya şəklində davam edən tədbirdə seçiciləri maraqlandıran suallar cavablandırıldı.

**Yeganə Əliyeva,**
**Vüsal Cahanov (foto),**
***"İki sahil"***

## YAP Səbail rayon təşkilatında müşahidəçilərlə görüş





Ötən gün Azərbaycan Respublikasının Milli Məclisinə 9 fevral tarixində keçiriləcək növbədənkənar seçkilərlə əlaqədar YAP Səbail rayon təşkilatında seçki məntəqələrində səsvermə prosesini izləyəcək müşahidəçilərlə görüş keçirildi.

Görüşdə YAP Səbail rayon təşkilatının aparat rəhbəri dosent Zəfər Bayramov, YAP Səbail rayon təşkilatının sədr müavinləri Muxtar Nağıyev, Əhliman Qarayev və Mehman İsmayılov çıxış edərək partiyanı təmsil edən müşahidəçilərə Azərbaycan Respublikasının Seçki Məcəlləsində olan əsas anlayışlar, müşahidə aparmağın prinsipləri, müşahidəçilərin hüquqları, riayət etməli olduqları şərtlər barədə məlumat verdilər.

Sonra müşahidəçiləri maraqlandıran suallar ətraflı cavablandırıldı.